# Azərbaycan Respublikası Xalq Parlamentinin

## N İ Z A M N A M Ə S İ

***Azərbaycan Respublikası Xalq Parlamenti təsisçilərinin 18.10.2024-cü il tarixli Konfransında qəbul edilib.***

***Parlamentin 08.02.2025 tarixli və 01.11.2025-ci il tarixli qərarları ilə əlavələr və dəyişikliklər edilib***

Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulan xalq hakimiyyəti və dövlətin əsasları ilə bağlı norma və prinsiplərin kobud surətdə pozulması, hakimiyyətin bir qrup şəxs tərəfindən mənimsənilməsi və bir ailənin maraqlarına tabe etdirilməsi, respublika ənənələrindən faktiki imtina edilməsi, ölkədə mütləqiyyət rejiminin qurulması, 4 iyun 1993-cü il tarixli silahlı dövlət çevrilişindən sonra keçirilən bütün seçkilərin və referendumların nəticələrinin saxtalaşdırılması Azərbaycan Respublikası Xalq Parlamentinin (bundan sonra "Xalq Parlamenti" adlandırılacaq) yaradılmasını və bu Nizamnamənin qəbulunu zəruri etmişdir.

### 1. Ümumi Müddəalar

1.1. Xalq Parlamenti Azərbaycan Respublikasının vətəndaşları, özləri və ya valideynlərindən biri əvvəllər Azərbaycan Respublikasının vətəndaşı olmuş şəxslərin iştirakı ilə, azad, demokratik, ədalətli, şəffaf və qanuni seçkilər yoluyla yaradılan, Azərbaycanda demokratiya, insan haqları və qanunun aliliyinin bərpasını, hüquqi dövlət quruculuğunu hədəfləyən, ictimai-siyasi təsisatdır.

1.2. Xalq Parlamenti Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, BMT Baş Məclisinin 16 dekabr 1966-cı il tarixli "Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt"ına uyğun olaraq, xalq kütlələrinin dövlət idarəçiliyində iştirakının təmin edilməsinə, ölkəmizdə qanuni hakimiyyətin bərpasına nail olmaq məqsədilə yaradılıb.

1.3. Xalq Parlamenti öz fəaliyyətini Azərbaycan Respublikası Konstitusiyası və milli qanunvericiliyin beynəlxalq hüquqa uyğun olan müddəalarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və bu Nizamnaməyə uyğun həyata keçirir.

1.4. Milli, irqi, sosial və ya dini nifrət və düşmənçilik yayan, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin əleyhinə, Xalq Parlamentinin Nizamnamə tələbləri əleyhinə fəaliyyət göstərən şəxs Xalq Parlamentinə seçkilərdə iştirak edə bilməz, onun heç bir qurumunda təmsil oluna bilməz.

1.5. Xalq Parlamentinin tərkibi 125 (yüz iyirmi beş) millət vəkilindən ibarətdir.

1.6. Xalq Parlamentinin abreviaturası "AzXP"-dir.

1.7. Xalq Parlamentinin mənzil qərargahları Bakı və Brüssel şəhərlərində yerləşir.

## 2. Xalq Parlamentinin əsas vəzifələri

2.1. Xalq Parlamentinin əsas vəzifələri Azərbaycan Xalq Parlamentinin 18 oktyabr 2024-cü il tarixli Azərbaycan Xalq Parlamentinin Təsis Bəyannaməsində öz əksini tapıb.

## 3. Xalq Parlamentinin hüquqları

3.1. Beynəlxalq təşkilatlarla, xarici dövlətlərin parlamentləri ilə əlaqələr saxlamaq, onlarla əməkdaşlıq etmək, beynəlxalq təşkilatlarda nümayəndə ilə təmsil olunmaq,

3.2. Azərbaycanda müvafiq ictimai və ya siyasi təsisatlarla əlaqələr və fəaliyyət birliyi yaratmaq, əhalinin hərtərəfli maarifləndirilməsi və təşkilatlandırılması üzrə fəaliyyət göstərmək,

3.3. Azərbaycanda və Azərbaycandan kənarda regional nümayəndəliklər yaratmaq və onların fəaliyyətini istiqamətləndirmək,

3.4. Öz adından əqdlər bağlamaq, bank hesabları açmaq və hesablaşmalar aparmaq,

3.5. Möhürə, ştampa və xüsusi blank formasına malik olmaq,

3.6. Qanunla qadağan edilməyən əmlaklara sahib olmaq,

3.7. Xalq Parlamentinin ümumi iclasının qəbul etdiyi forma və məzmunda loqosu, döş nişanı və vəsiqəsi var,

3.8. Qanunla qadağan edilməyən digər hüquqlardan istifadə etmək.

## 4. Xalq Parlamentinin Təşəbbüs Qrupu, Təsisçiləri və Seçki Komissiyası

4.1. Təşəbbüs Qrupu

4.1.1. Xalq Parlamentinin yaradılması ideyası ətrafinda ilk birləşmiş şəxslər Təşəbbüs Qrupunun üzvləri hesab olunur.

4.1.2. Təşəbbüs Qrupu təsisçilər siyahısına daxil edilmək üçün edilən müraciətlərə baxır, təsisçilərin ümumi siyahısını hazırlayır, təsisçilərlə birlikdə təsis toplantısını, Xalq Parlamentinə seçkiləri və Xalq Parlamentinin ilk iclasını təşkil edir.

4.1.3. Xalq Parlamentinin ilk iclası başladığı andan Təşəbbüs Qrupunun vəzifələri bitmiş hesab edilir və buraxılır.

4.2. Təsisçilər

4.2.1. Azərbaycan Respublikasının aktiv seçki hüququ olan bütün vətəndaşları, özü və ya valideynlərindən biri əvvəllər Azərbaycan Respublikasının vətəndaşı olmuş şəxslər Xalq Parlamentinin təsisçisi ola bilərlər.

4.2.2. Xalq Parlamentinin təsis toplantısında iştirak edən və xalq Parlamentinin təsis edilməsinə səs verən şəxslər təsisçilər hesab edilirlər.

4.2.3. Təsisçilər bərabər hüquqlara malikdirlər. Təsisçilərin qarşılıqlı münasibətləri, hüquq və vəzifələri bu Nizamnamə və Təsisçilərin ümumi toplantısında qəbul edilən təlimatlarla müəyyən edilir.

4.2.4. Xalq Parlamentinin ilk iclası başladığı andan təsisçilərin vəzifəsi bitmiş hesab edilir.

4.3. Təsis toplantısı

4.3.1. Təsisçilərin birinci birgə iclası Təsis toplantısı adlanır.

4.3.2. Təsis toplantısı:

4.3.2.1. Xalq Parlamentinin təsis edilməsi barədə qərar qəbul edir,

4.3.2.2. Xalq Parlamentinin Nizamnamə və Təsis Bəyannaməsini qəbul edir,

4.3.2.3. Xalq Parlamentinə millət vəkili seçkilərini həyata keçirmək üçün təsis toplantısı iştirakçıları sırasından 7 (yeddi) nəfərdən ibarət, daimi əsaslarla fəaliyyət göstərən "Seçki Komissiyası"nın tərkibini seçir. Seçki Komissiyasının tərkibində sonrakı dəyişikliklər Parlamentin qərarı ilə həyat keçirilir.

4.3.3. Təsisçilərin ümumi toplantısı Xalq Parlamentinin ilk iclasınadək Xalq Parlamenti funksiyalarını həyata keçirir.

4.3.4. Xalq Parlamentinin ilk iclası başladığı andan təsisçilərin hər hansı tərkibdə toplantı keçirmələrinə son qoyulur.

4.4. Seçki Komissiyası

4.4.1. Seçki Komissiyası bu Nizamnamənin 4.3.2.3.-cü bəndində göstərildiyi qaydada formalaşdırılır. Seçki Komissiyasında yaranan vakant yerlərə namizədlər Azərbaycan Xalq Parlamentinin sessiyasında irəli sürülür və sessiyada səsvermədə iştirak edən millət vəkillərinin yarıdan çoxunun lehinə səsverməsi ilə seçilir.

4.4.2. Seçki Komissiyası Xalq Parlamentinə millət vəkilliyinə namizədlərin müraciətlərinə baxır, namizədləri qeydə almaq üçün onlar haqqında zəruri məlumatları toplayır, qanuni əsaslar olduğu halda, onları qeydə alır, onları qeydə almaqdan imtina edir və ya artıq qeydə alınmış namizədlərin qeydiyyatını ləğv edir.

4.4.3. Seçkilərin keçirilməsi qaydalarını və vaxtını müəyyən edir, Təşəbbüs Qrupunun üzvləri və Təsisçilərlə birlikdə Xalq Parlamentinə birinci çağırış seçkiləri təşkil edir, müstəqil olaraq səsləri hesablayır, seçki nəticələrini rəsmiləşdirir və elan edir.

4.4.4. Seçki Komissiyasının tərkibi Xalq Parlamentinin iclasında səsvermədə iştirak edən millət vəkillərinin yarıdan çoxunun qərarı ilə buraxıla və ya dəyişdirilə bilər. Seçki Komissiyasında boş qalan və ya boşalan yerlərə, iki həftədən gec olmayaraq, əlavə üzvlər seçilir.

4.4.5. Seçki Komissiyası Xalq Parlamentinin ilk iclasına qədər təsisçilər qarşısında, Xalq Parlamenti formalaşdıqdan sonra Parlament qarşısında hesabatlıdır.

## 5. Xalq Parlamentinə seçkilərin və daxili səsvermənin qaydaları

5.1. Xalq Parlamentinə millət vəkillərinin seçkiləri və parlamentdaxili səsvermələr, real imkanlara (vəziyyətə) uyğun olaraq, ya internet resursları üzərindən elektron qaydada, elektron səsvermə proqramları vasitəsilə, ya da qapalı məkanlarda seçki qutuları vasitəsilə keçirilir.

5.2. Xalq Parlamentinə ilk seçkilər təsisçilərin qərarı ilə elan edilir. Azərbaycan Xalq Parlamentinə növbəti çağırış üzrə seçkilər, hər 3 (üç) ildən bir olmaqla, millət vəkillərinin səlahiyyət müddətinin bitməsinə ən azı 90 (doxsan) gün qalmış elan edilir. Növbəti çağırış üzrə seçkinin tarixini və vaxtını Seçki Komissiyası təyin edir."

5.3. Xalq Parlamentinin millət vəkili olmaq istəyən şəxslər öz namizədliklərini irəli sürmələri barədə Seçki Komissiyasının müəyyən etdiyi bildiriş forması ilə Seçki Komissiyasına müraciət edir.

5.4. Seçki Komissiyası bu Nizamnamənin 4.4.2.-ci bəndinə uyğun olaraq, namizədlər haqqında zəruri məlumatları toplayır, qanuni maneələr olmadığı halda onları qeydə alır və qeydiyyatdan keçmiş namizədlərin siyahısını internet resursları üzərindən seçicilərə təqdim edir.

5.5. Səsvermə internet resursları üzərindən, Seçki Komissiyasının qərarı ilə müəyyən edilən elektron səsvermə proqramı vasitəsilə, gizli səsvermə yolu ilə keçirilir.

5.6. *Azərbaycan Xalq Parlamentinə seçkilərdə, hər bir seçicinin seçki bülletenində Seçki Komissiyası tərəfindən göstərilən sayda namizədə səs vermək hüququ vardır.*

5.7. Seçkilərdə səsvermə prosesi bir həftə müddətində davam edir.

5.8. Boş qalan yerlərə əlavə seçkilər, Parlament fəaliyyətə başlayan gündən sonrakı 3 (üç) aydan gec olmayaraq, Seçki Komissiyası tərəfindən təyin edilir, iki ay müddətində keçirilir və seçki bülletenində Seçki Komissiyası tərəfindən göstərilən sayda ən çox səs toplayan namizədlər seçilmiş sayılır.

5.9. Hər hansı səbəbdən səlahiyyətinə xitam verilən millət vəkillərinin yerinə, həmin millət vəkilinin seçildiyi səsvermə üzrə bülletendə növbəti ən çox səs toplamış namizədlər millət vəkili statusu qazanır

5.10. Xalq Parlamentində daxili səsvermə qaydaları, səsvermənin növləri və formaları bu Nizamnamə və Xalq Parlamentinin Reqlamenti (iş qaydası) ilə müəyyən edilir.

5.11. Xalq Parlamentinin seçki yolu ilə həll edilməli bütün təşkilati işləri gizli səsvermə yolu ilə həll edilir.

5.12. Səsvermədə yalnız "lehinə" və ya "əleyhinə" səs verilə bilər.

5.13. Səsvermə zamanı bitərəf qalmaq və ya üzürsüz səbəblərdən səsvermədə

iştirak etməmək qadağandır.

5.14. Səsvermə internet resursları üzərindən, xüsusi səsvermə proqramları vasitəsilə keçirilərkən səsvermənin nəticələrini iclasa sədrlik edən özü elan edir və sonradan həmin nəticələri protokollaşdırmaq üçün Hesablama Komissiyasına verir.

5.15. Səsvermə internet resursları üzərindən açıq səsvermə yolu ilə, fiziki olaraq əl qaldırma vasitəsilə keçirildikdə və ya qapalı sahələrdə seçki qutuları vasitəsilə gizli səsvermə yolu ilə, yaxud da əl qaldırmaqla açıq səsvermə zamanı və ya adbaad səsvermə zamanı nəticələri Hesablama Komissiyası hesablayır. Nəticələr Parlament iclasına sədrlik edənə verilir və Parlament sədri tərəfindən elan edilir.

5.16. Xalq Parlamenti siyasi reallıqları və şərtləri nəzərə almaqla seçki tarixinə, vaxtına, qaydalarına, növlərinə, formalarına və metodlarına dəyişiklik edə bilər.

## 6. Xalq Parlamentinin strukturu.

6.1. **Xalq Parlamentinin Ali Orqanı.**

6.1.1. Xalq Parlamentinin Ali Orqanı onun Sessiyasıdır. Sessiya Millət Vəkillərinin ən azı üçdə birinin iştirakı ilə keçirildikdə səlahiyyətlidir. Sessiya ayrı-ayrı iclaslardan ibarətdir. İclaslar bir qayda olaraq, hər həftə keçirilir. İclasın günün və vaxtını Rəyasət Heyəti təyin edir.

6.1.2. Xalq Parlamentinin birinci sessiyasının ilk iclasını millət vəkillərinin yaşlı üzvlərindən biri açır və onun təklifi ilə iclası davam etdirmək üçün 3 millət vəkilindən ibarət sədarət seçilir.

6.1.3. İclaslara sədrlik kollegial qaydada həyata keçirilir.

6.1.4. Sessiyanın ilk iclasında 5 millət vəkilindən ibarət tərkibdə Rəyasət Heyəti, 5 millət vəkilindən ibarət tərkibdə Hesablama Komissiyası, 5 millət vəkilindən ibarət tərkibdə İntizam Komissiyası seçilir.

6.1.5. İclaslar öz işini başa çatdıranadək bir neçə oturumda davam edə bilər.

6.1.6. Xalq Parlamentinin sədrinə: “hörmətli sədr”-deyə, Xalq Parlamentinə: “hörmətli millət vəkilləri”-deyə, Xalq Parlamentinin üzvünə: “hörmətli millət vəkili”-deyə, müraciət edilir.

6.1.7. Sessiya bu Nizamnamə və Xalq Parlamentinin Reqlamentinə (iş qaydası) uyğun olaraq, Xalq Parlamentinin fəaliyyəti ilə bağlı qərarlar qəbul edir.

6.1.8. Xalq Parlamentinin Sessiyaları növbə ilə ildə üç dəfə, dörd aydan bir olmaqla çağırılır.

6.1.9. Növbədənkənar iclaslar Rəyasət Heyətinin və ya 20 Millət Vəkilinin təşəbbüsü ilə Parlament sədri tərəfindən çağırılır.

6.2. **Rəyasət Heyəti**
6.2.1. Rəyasət Heyəti Xalq Parlamentinin hər çağırışının ilk iclasında, gizli səsvermə yolu ilə, 5 millət

vəkilindən ibarət tərkibdə seçilir.

6.2.2. Rəyasət Heyəti kollegial orqandır,

6.2.3. Rəyasət Heyəti Xalq Parlamentinə ümumi rəhbərliyi və toplantıların idarə edilməsini həyata keçirir.

6.2.4. Rəyasət Heyətinin üzvləri hər biri, 7 (yeddi) *ay olmaqla, səsvermə zamanı topladıqları saya müvafiq olaraq, növbəlilik əsasında Parlamentə sədrlik edir.*

6.2.5. Rəyasət Heyəti səlahiyyət vermədən Parlamentin heç bir üzvü Parlamenti təmsil edə bilməz.

6.2.6. Rəyasət Heyətinin üzvləri bərabər hüquqlara malikdir və Xalq Parlamentinin Reqlamentində göstərilən hüquq və vəzifələr daşıyır.

6.2.7. Rəyasət Heyəti yanında Parlament Aparatı fəaliyyət göstərir.

6.2.8. Parlament Aparatının strukturu, tərkibi və iş qaydası *Parlament* tərəfindən təsdiq edilən Əsasnamə ilə tənzimlənir.

6.2.9. Parlament Aparatı Parlament sədrinin rəhbərliyi altında fəaliyyət göstərir və Rəyasət Heyətinin tapşırıqlarını icra edir.

*6.2.10. Rəyasət Heyəti Parlament üzvlərindən və Parlament üzvü olmayan şəxslərdən ibarət müvəqqəti işçi qruplarI yarada bilər*

6.3. **Parlament sədri**

6.3.1. Xalq Parlamentinin iclaslarına sədrlik edir,

6.3.2. Xalq Parlamentinin adından sənədlər imzalayır,

6.3.3. Xalq Parlamentini beynəlxalq təşkilatlarda və digər orqanlarda təmsil edir.

6.3.4. Rəyasət heyətinin üzvləri arasında iş bölgüsü aparır,

6.3.5. Parlament Aparatına rəhbərlik edir, tapşırıqlar verir,

6.3.6. Reqlamentə əməl edilməsini və icra intizamını təmin edir,

6.3.7. Heç bir səbəb göstərmədən, Parlament iclaslarını aparmaq üçün öz səlahiyyətlərini Rəyasət Heyyətinin üzvlərindən birinə verə bilər,

6.3.8. Millət vəkilləri arasında sağlam münasibətlərin formalaşmasında iştirak edir,

6.3.9. Bu Nizamnamənin 6.2.5.-ci maddəsinə uyğun olaraq, Parlament sədrini və ya Xalq Parlamentini təmsil etmək üçün ayrı-ayrı millət vəkillərinə səlahiyyət verir,

6.3.10. Parlament Sədri hər hansı bir səbəbdən vəzifəsini icra edə bilmədikdə, topladığı səsə müvafiq olaraq, Rəyasət Heyətinin növbəti üzvü Parlamentə sədrlik edir.

*6.3.11. Parlament sədri onun sədrliyi dövründə qəbul edilən qərarlarIn, digər sənədlərin və yazIşmalarIn reyestrini (qeydiyyatInI) aparIr, onlarIn növbəti sədrə təhfil verilməsini, Parlamentin rəsmi saytInda yayIlmasInI, sənədlərin təyinatI üzrə, xüsusilə də beynəlxalq təşkilatlara çatdIlmasInI təmin edir.*

6.4. **Xalq Parlamentinin Komitələri**

6.4.1. Xalq Parlamentinin tərkibində aşağıdakı komitələr yaradılır:

6.4.1.1. Hüquq və dövlət quruculuğu komitəsi,

6.4.1.2. İnsan hüquqları komitəsi,

6.4.1.3. İqtisadiyyat və sosial siyasət komitəsi

6.4.1.4. Təhsil və səhiyyə komitəsi,

6.4.1.5. Siyasət (daxili və xarici siyasət üzrə) komitəsi.

6.4.2. Bu komitələr nəzdində ayrı-ayrı sahələr üzrə alt komitələr də yaradıla bilər.

6.4.3. Xalq Parlamenti öz fəaliyyətində zəruri bildiyi başqa komitələr də yarada bilər.

6.5. **Xalq Parlamentinin Komissiyaları**

6.5.1. Hesablama Komissiyası:

6.5.1.1. Xalq Parlamentinin ilk iclasında, Xalq Parlamentinin Reqlamentində və bu Nizamnamədə göstərilən qaydada, 5 millət vəkilindən ibarət tərkibdə seçilir.

6.5.1.2. Hesablama Komissiyasının birinci iclasında komissiya üzvləri öz aralarında komissiya sədrini və katibini seçir.

6.5.1.3. Hesablama Komissiyası internet resursları üzərindən keçirilən iclaslarda, fiziki olaraq əl qaldırma yolu ilə keçirilən açıq səsvermənin nəticələrini və qapalı yerlərdə seçki qutuları vasitəsilə keçirilən gizli və açıq səsvermələrin nəticələrini, eləcə də adbaad keçirilən seçkilərin nəticələrini hesablayır, protokollaşdırır və Rəyasət Heyətinə təhvil verir.

6.5.1.4. Hesablama Komissiyasının qərarları ən azı 3 üzvünün “lehinə” səs verməsi ilə qəbul edilir.

6.5.2. İntizam Komissiyası.

6.5.2.1. Xalq Parlamentinin ilk iclasında, Xalq Parlamentinin Reqlamentində və

bu Nizamnamədə göstərilən qaydada, 5 millət vəkilindən ibarət tərkibdə seçilir.

6.5.2.2. İntizam Komissiyasının qərarları ən azı 3 üzvünün “lehinə” səs verməsi ilə qəbul edilir.

6.5.2.3. İntizam Komissiyası Xalq Parlamentinin Reqlamentində onun səlahiyyətinə aid edilən məsələlərə baxır və Reqlamentdə göstərilən qərarlardan birini qəbul edir.

*6.5.2.4.* İntizam Komissiyası Parlament iclaslarında üzürsüz səbəbdən, ardıcıl olaraq 5 dəfə iştirak etməyən millət vəkilinin səlahiyyətinə xitam verilməsi barədə Rəyasət Heyətinə təqdimat verir, Rəyasət Heyətinin təklifi ilə Parlamentin qərarına əsasən Seçki Komissiyası onları Parlament üzvlərinin siyahısından çıxarır.

6.5.3. Xalq Parlamenti digər müvəqqəti və daimi komissiyalar da yarada bilər.

6.6. Mətbuat xidməti.

6.6.1. Mətbuat Xidməti, 3 nəfərdən ibarət olmaqla, Rəyasət Heyəti tərəfindən yaradılır.

6.6.2. Mətbuat xidmətinin tərkibində millət vəkili olmayan şəxslər də ola bilər.

6.6.3. Mətbuat Xidmətinin rəhbərini Rəyasət Heyətinin razılığı ilə Parlament sədri təyin edir.

6.6.4. Mətbuat Xidməti bu Nizamnamədə və parlamentin Reqlamentində nəzərdə tutulan sənədlərin vaxtında yayılmasını, ictimaiyyətə çatdırılmasını və qəbul ediləcək qərarların ictimai müzakirəsini təşkil edir.

6.6.5. Rəyasət Heyətinin və ya Parlament sədrinin tapşırıqlarını yerinə yetirir.
6.6.6. Mətbuat Xidmətinin əməkdaşı yalnız Parlamentin sadə səs çoxluğu ilə qəbul etdiyi qərar əsasında və ya İntizam Komissiyasının qərarı əsasında tutduğu vəzifədən kənarlaşdırıla bilər.

6.7. azxp.info saytı və sair mətbuat orqanları

6.7.1. Xalq Parlamentinin azxp.info adlı saytı vardır.

6.7.2. Xalq Parlamentinin iclasları haqqında məlumatlar və Parlamentin qərarları bu saytda dərc edildikdən sonra rəsmi qaydada yayılmış hesab edilir.

6.7.3. Sayt rəhbərliyi Rəyasət Heyyəti tərəfindən, sonradan Parlamentin təsdiqinə verməklə, təyin edilir.

6.7.4. azxp.info saytının rəhbəri yalnız Parlamentin sadə səs çoxluğu ilə qəbul etdiyi qərar əsasında və ya İntizam Komissiyasının qərarı ilə tutduğu vəzifədən kənarlaşdırıla bilər.

6.7.5. Xalq Parlamenti digər saytlar, qəzetlər, televiziya orqanları və mətbəələr də yarada bilər.

**7. Millət vəkili**

7.1. Xalq Parlamentinə seçilən şəxslər millət vəkili adlanır.

7.2. Millət vəkilinin səlahiyyət müddəti *3(üç)* ildir.

7.3. Millət vəkilinin hüquq və vəzifələri bu Nizamnamə və Xalq Parlamentinin Reqlamenti (iş qaydası) ilə müəyyən edilir.

7.4. Millət vəkilinin hüquqları:

7.4.1. Qanunvericilik təşəbbüsü ilə çıxış etmək,

7.4.2. Parlamentin Rəyasət Heyəti vasitəsilə və ya şəxsən, Parlamentin və Komitələrin iclasının gündəliyinə təkliflər irəli sürmək,

7.5. Millət vəkili əmək haqqı almır, ictimai əsaslarla fəaliyyət göstərir. Xalq Parlamentinin xüsusi tapşırıqlarının icrası ilə bağlı onun fəaliyyəti maliyyələşdirilə bilər.

7.6. *Millət vəkili* Azərbaycan Respublikasının qanunvericiliyi, bu Nizamnamə və Xalq Parlamentinin Reqlamenti ilə müəyyən edilən digər hüquq və vəzifələr daşıyır.

7.7. Millət vəkilinin (***namizədin)*** vəzifələri:

7.7.1. Bu Nizamnamənin və Reqlamentin tələblərinə əməl etməyə, qarşıya qoyulmuş məqsəd və məramın həyata keçməsi istiqamətində fəaliyyət göstərməyə borcludur.

7.7.2. Bu Nizamnamənin, Reqlamentin və "Azərbaycan Xalq Parlamenti *millət vəkilinin* (namizədin) etik davranış kodeksi"nin tələblərini pozan millət vəkili (*namizəd)*, İntizam Komissiyasının rəyi əsasında Xalq Parlamentinin qərarı ilə Xalq Parlamentinin Reqlamentində göstərilən qaydada intizam məsuliyyətinə cəlb edilir.

**8. Xalq Parlamentinin əsas fəaliyyət istiqamətləri**

8.1. Yeni Konstitusiya layihəsinin, qanun layihələrinin, qərarların və digər sənədlərin hazırlanması, qəbulu, ictimaiyyətə və beynəlxalq təşkilatlara çatdırılması,

8.2. Mövcud qanunlara əlavə və düzəlişlər edilməsi ilə bağlı layihələrin hazırlanması, qəbulu, ictimaiyyətə və beynəlxalq təşkilatlara çatdırılması,

8.3. Ölkədəki vəziyyətə, Azərbaycan hakimiyyətinin daxili və xarici siyasətinə dair dinləmələrin təşkili,

8.4. Azərbaycanla əlaqəli olan geosiyasi durum və perspektivlər barədə müzakirələrin

aparılması və qərarların qəbulu,

8.5. İctimaiyyətin hərtərəfli maarifləndirilməsi işinin genişləndirilməsi, siyasiləşdirilməsi və təşkilatlandırılması istiqamətində işlərin aparılması,

8.6. Xalq Parlamentinin təsis Bəyannaməsində, bu Nizamnamədə və Reqlamentdə nəzərdə tutulan digər məsələlər üzrə müzakirələrin təşkili.

**9. Xalq Parlamentinin əmlakı və maliyyələşdirilməsi**

9.1. Xalq Parlamentinin mülkiyyətində avadanlıqlar, inventarlar, pul vəsaitləri və bu Nizamnamə ilə nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün, müvafiq qanunvericiliklə qadağan olunmamış əmlaklar ola bilər.

9.2. Xalq Parlamenti hüquqi şəxsdir, maddi öhdəliklərinə görə əmlakı ilə məsuliyyət daşıyır. Bu əmlak ədalətli məhkəmə qərarı olmadan özgəninkiləşdirilə bilməz.

9.3. Xalq Parlamentinin əmlakının pul və digər şəkildə formalaşdırılması mənbələri aşağıdakılardır:

9.3.1. Təsisçilər və Xalq Parlamenti üzvlərinin könüllülük əsasında verdikləri müntəzəm və ya birdəfəlik üzvlük haqları, ianələr,

9.3.2. İdarə, müəssisə, yerli və beynəlxalq təşkilatların və vətəndaşların verdikləri əmlak (bağışlama, vərəsəlik yolu ilə və sair) və ianələr,

9.3.3. Öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər,

9.3.4. Yaratdığı təsisatların (nəşriyyat, mətbəə, saytlar, TV-lər və sair) qanuni fəaliyyəti nəticəsində əldə olunan gəlirlər,

9.3.5. Qanunvericiliklə qadağan olunmamış və Xalq Parlamentinin Reqlamentində nəzərdə tutulan digər mədaxillər.

9.4. Xalq Parlamentinin üzvləri onun mülkiyyətinə daxil olan vəsait və avadanlıqlar üzərində xüsusi mülkiyyət hüququna malik deyil, onlardan əvəzsiz istifadə edir və onların qorunması, saz saxlanması qayğısına qalmalıdır.

9.5. Xalq Parlamenti qanunlara və Nizamnamə vəzifələrinə uyğun olaraq, öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir.

9.6. Xalq Parlamentinin hesabına daxil olmuş xüsusi təyinatlı vəsait başqa istiqamətlərdə xərclənə bilməz.

9.7. Xalq Parlamentinin əmlakı və maliyyələşdirilməsi ilə bağlı yarana biləcək problemlərin həlli Azərbaycan Respublikasının qanunvericiliyi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu Nizamnamə və Xalq Parlamentinin Reqlamentinə uyğun həll edilir.

9.8. Xalq Parlamentinin adından onun maliyyə işlərini idarə edən və səlahiyyəti Parlament sədri və Rəyasət Heyətinin bir üzvü tərəfindən təsdiqlənən Maliyyə meneceri vardır.

9.9. Maliyə meneceri ona verilən səlahiyyətlərə uyğun olaraq, Xalq Parlamentinin adından bütün maliyyə sənədlərini (bank hesablarının imzalanması, maliyyə hesabat sənədləri, hesablaşmaların aparılması, pul köçürmələri və s.) imzalamaq hüququna malikdir.

**10. Xalq Parlamentinin buraxılması**

10.1. Parlament, qarşısına qoyduğu məqsədlərə çatana qədər daimi əsaslarla fəaliyyət göstərir.

10.2. Xalq Parlamenti onun Təsis Bəyannaməsində nəzərdə tutulan vəzifələrini yerinə yetirdikdən sonra buraxılır.

10.3. Xalq Parlamenti buraxılarkən onun balansında olan bütün əmlakı Azərbaycan dövlətinin büdcəsinə verilir.

**11. Nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi qaydası**

11.1. Xalq Parlamentinin Nizamnaməsinə əlavə və dəyişikliklər təklifi ən azı 13 (on üç) millət vəkilinin və ya Rəyasət Heyətinin və ya İntizam Komissiyasının və ya Komitələrdən birinin və ya Parlament qrupunun (fraksiya) təşəbbüsü ilə gündəliyə salına bilər.

11.2. *Nizamnaməyə əlavə və dəyişikliklər haqqında qərar həmin iclasda səsvermədə iştirak edən millət vəkillərinin üçdə iki hissəsinin səsi ilə qəbul edilir..*

*P.S. Nizamnamədə edilən yeni dəyişikliyə uyğun olaraq, AzXP-nin Reqlamentində və digər sənədlərində keçən "deputat" sözləri "millət vəkili" sözü ilə əvəz edilsin və onların üzərində zəruri redaktə işlərinin aparılması Rəyasət Heyətinə tapşırılsın.*

28.01.2025

**Azərbaycan Xalq Parlamentinin dönəm sədri**

**Xatirə Cəbrayılova**

**01.11.2025-ci il.** İmza: